**Siyahıya alınmış əmlakların açıq hərraclarda satılması müzakirə olunur**

Vergi borclarının ödənilməsinin təmin edilməsi üsulu kimi siyahıya alınmış əmlakların ixtisaslaşdırılmış açıq hərraclarda satılmasına dair qəbul olunmuş məhkəmə qətnamələrinin icrası, keçirilən hərracların vəziyyəti və nəticələrinin müzakirəsinə həsr olunmuş tədbirdə Vergilər Nazirliyinin vəzifəli şəxsləri ilə yanaşı, Ədliyyə Nazirliyinin, Daşınar və Daşınmaz Əmlakların Satışı üzrə Hərrac Mərkəzinin nümayəndələri də iştirak etmişlər. Tədbirdə siyahıya alınmış əmlakların ixtisaslaşdırılmış açıq hərraclarda satılmasına dair qəbul olunmuş məhkəmə qətnamələrinin icra vəziyyətinin fərdi qaydada yoxlanılması və rayonlar üzrə icra məmurlarının icraatında qalan işlərin müəyyənləşdirilməsi, Bakı şəhərində və rayonlar üzrə siyahıya alınmış əmlakların ixtisaslaşdırılmış açıq hərraclarda satılmasına dair qəbul olunmuş məhkəmə qətnamələrinin vergi orqanına daxil olduqdan sonrakı 3 gün ərzində icra məmurlarının iştirakı ilə həmin obyektdən götürülməsi, o cümlədən icra məmurlarının iştirakı ilə götürülmüş əmlakların saxlanılması üçün xüsusi saxlanc (anbar) yerlərinin müəyyən edilməsi və s. məsələlər ətrafında geniş müzakirələr aparılmışdır. Başlıca mövzulardan biri də hərracların tələb olunduğu hallarda saxlanc (anbar) yerlərində keçirilməsi, rayonlara gedilməklə əmlakın faktiki yerlər üzrə səyyar hərracların keçirilməsinin zəruriliyi olmuşdur.

Görüşün sonunda vergi orqanı, icra məmuru və hərrac təşkilatı ilə birlikdə qarşılıqlı əlaqələndirilmiş işlərin qurulması barədə razılıq əldə edilmişdir.

Arzu İBRAHİMOVA